## *“Global Times”:*

# Azərbaycan Çinin açıqlıq siyasətinin yaratdığı imkanlardan tam istifadə edəcək

**Çin Kommunist Partiyasının rəsmi mətbu orqanlarından biri olan nüfuzlu “Global Times” qəzetində “Azərbaycan Çinin açıqlıq siyasətinin yaratdığı imkanlardan tam istifadə edəcək” sərlövhəli məqalə dərc olunub.**


GLOBAL TIMES
E-Paper Mobile Apps One stop
HOME CHINA BIZ WORLD OPINION LIFE ARTS SCI-TECH ODD SPORT METRO VIDEO PHOTOS
HOME >> WORLD CHINA

Azerbaijan to take full advantage of China's opening-up opportunities

By Li Sikun Source:Global Times Published: 2019/11/19 10:32:28

Editor's Note:

Azerbaijan's new deputy prime minister Shahin Mustafayev led a delegation to Shanghai for the just-concluded second China International Import Expo (CIIE). Global Times reporter Li Sikun (GT) spoke with Mustafayev (Mustafayev) in an exclusive interview on this occasion. Mustafayev spoke highly of the CIIE and praised the remarks of Chinese President Xi Jinping at the opening ceremony as very intelligent. Mustafayev said Azerbaijan attached great importance to the expo and would take full advantage of China's opening-up opportunities to further enhance cooperation with China.

DAILY QUOTES >>

Washington should not overestimate its cards to intervene in Hong Kong affairs. When it comes to cardinal issues of right and wrong, when Hong Kong faces historic choices, what the US has in its hand means nothing.

Global Times

Popular on People's Daily >>

Lao officials speaks highly of China-Laos railway

China's first Mars simulation base in desert

Food delivery men in Shanghai start to wear reflective safety vests with numbers

Silver economy turns smarter as seniors seek trendier lifestyles

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevlə müsahibə əsasında hazırlanan məqalədə Çin-Azərbaycan iqtisadi əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri barədə danışılıb.

Məqalədə Cənubi Qafqaz regionunda, Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünün icrasındakı rolundan, bu ölkənin həyata keçirdiyi iqtisadi islahatların və açıqlıq siyasətinin əməkdaşlıq üçün yaratdığı imkanlardan, habelə ötən ildən keçirilən illik beynəlxalq idxal sərgilərinin Azərbaycan ilə Çin arasında ticarətin inkişafına verdiyi töhfələrdən danışılıb.

Qeyd edilib ki, Azərbaycan Çinin idxal məhsullarına artan tələbatını təmin etmək üçün keçirilən builki Çin Beynəlxalq İdxal Sərgisində geniş heyətlə təmsil olunub. Sərgidə Azərbaycanın 26 şirkətinin 500-dən çox məhsulu, xüsusən də kənd təsərrüfatı və qida məhsulları nümayiş etdirilib.

Baş Nazirin müavini iki ölkə arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyini, bunun bariz nümunəsi kimi yanvar-sentyabr aylarında ticarət dövriyyəsinin ötən ilin eyni dövrü ilə müqayisədə 96 faiz artdığını deyib. Bildirilib ki, Azərbaycan Cənubi Qafqazda Çinin vacib ticarət tərəfdaşıdır.

Məqalədə Azərbaycanın “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olduğu, 2015-ci ildə iki ölkə arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunun imzalandığı, Prezident İlham Əliyevin cari ilin aprelində Pekində 2-ci “Bir kəmər, bir yol” beynəlxalq əməkdaşlıq forumunda iştirakı qeyd edilib. Bununla Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünə tam dəstəyini ifadə edib.

Vurğulanıb ki, iki ölkə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq edir, Çin mallarının Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Avropaya daşınması həyata keçirilir.

“Global Times” qəzeti oxucularına Azərbaycanın nəqliyyat-logistika imkanları, o cümlədən Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb, Şimal-Qərb nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, habelə yenilənən avtomobil və dəmir yolları şəbəkəsi haqqında məlumat verib. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın infrastrukturun səviyyəsinə görə 31-ci, dəmir yollarının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə 12-ci, dəniz limanlarının səmərəliliyinə görə isə 25-ci yerdə qərarlaşması, Dünya Bankının 2020-ci il üzrə “Doing Business” hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə sırasında yer alması vurğulanıb.

**AZƏRTAC**

**Respublika.- 2019.- 21 noyabr.-S.2.**